# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

Bakı şəhəri № 221/2 30 iyun 2011-ci il

Azərbaycan Respublikasi Auditorlar Palatasının fəaliyyətini geniş əks etdirmək üçün internet səhifəsinin təkmilləşdirilməsi işinin təşkili və Azərbaycan Respublikasi Auditorlar Palatasının fəaliyyətini geniş əks etdirmək üçün internet səhifəsinin ingilis və rus dillərində hazırlanması barədə

Auditorlar Palatasının 2011-2013-cü illər üzrə iş planının və Palata Şurasının 2011-ci il üzrə iş planının - "Auditorlar Palatasının fəaliyyətini geniş əks etdirmək üçün İnternet səhifəsinin təkmilləşdirilməsi işinin təşkili" və "Auditorlar Palatasının fəaliyyətini geniş əks etdirmək üçün İnternet səhifəsinin ingilis və rus dillərində hazırlanması" barədə 9.19-cu, 9.20-ci, 25-ci, 26-cı, habelə - "Sərbəst auditorların və auditor təşkilatlarının hesabatlarının elektron variantının qəbul olunmasının təşkili" barədə 8.5-ci və 29-cu müvafiq bəndləri ilə əlaqədar Maliyyə və informasiya təminatı idarəsinin rəisi V.Rəhimovun məruzəsini dinləyərək, Auditorlar Palatası Şurası

**QƏRARA ALIR:**

1. Maliyyə və informasiya təminatı idarəsinin rəisi V.Rəhimovun "Auditorlar Palatasının fəaliyyətini geniş əks etdirmək üçün internet səhifəsinin təkmilləşdirilməsi işinin təşkili və Auditorlar Palatasının fəaliyyətini geniş əks etdirmək üçün internet səhifəsinin ingilis və rus dillərində hazırlanması"na dair məruzəsi nəzərə alınsın.
2. Maliyyə və informasiya təminatı idarəsi (V.Rəhimov) tərəfindən təqdim olunmuş Auditorlar Palatasının təkmilləşdirilmiş və yeniləşdirilmiş internet səhifəsinin strukturu məqbul hesab edilsin.
3. Maliyyə və informasiya təminatı idarəsinə (V.Rəhimov) tapşırılsın ki, Palatanın Azərbaycan dilində internet səhifəsinin tamamlanma işi iyul ayının sonunadək başa çatdırılsın.
4. Maliyyə və informasiya təminatı idarəsinə (V.Rəhimov) tapşırılsın ki, Palatanın ingilis dilində internet səhifəsinin təkmilləşdirilməsinin və yeniləşdirilməsinin başa çatdırılması avqust ayının sonunadək, rus dilində isə sentyabr ayının sonunadək təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**